# TƏHSİLİN İDARƏOLUNMASININ MƏLUMAT SİSTEMLƏRİNİN TƏTBİQİ SAHƏSİ ÜZRƏ 2010-CU İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT

TİMS şöbəsində 2010-cu il ərzində iş planına uyğun olaraq aşağıdakı istiqamətlərdə işlər görülmüşdür:

**I. Rəhbərlik tərəfindən şöbəyə həvalə edilən və şöbənin kurasiyasında olan sahələr üzrə görülən işlər:**

Ümumtəhsil məktəblərində (IX və XI siniflərdə) buraxılış imtahanlarının keçirilməsi, qiymətləndirilməsi və məlumatların İnternetdə yerləşdirilməsi üçün proqram təminatının hazırlanmasına kömək göstərilmişdir.

Əsas və orta təhsil kursu üzrə Nazirlik tərəfindən mərkəzləşmiş qaydada keçirilən buraxılış sınaq və yekün imtahanları üzrə

- İmtahanlara hazırlıq işlərinin təşkili ilə bağlı tədbirlərdə iştirak edilmişdir.
- IX və XI siniflərdə təhsil alan şagirdlərlə bağlı məlumatlar yığılmış, yoxlanılmış və dəqiqləşdirilərək Monitorinq və qiymətləndirmə şöbəsinə verilmişdir.
- Şöbə əməkdaşları imtahan rəhbərləri kimi Saatlı, Goranboy, Qəbələ, Ağcabədi, Qobustan, Göy-Göl, Tovuz, Oğuz, Qax, Ağdaş, Gədəbəy, Sabirabad, Samux, Abşeron rayonlarında və Bakı, Sumqayıt və Naftalan şəhərlərində yoxlama və yekun imtahanların aparılmasını təşkil etmişdir.
- 2010/2011-ci dərs ilində Respublikanın bütün ümumitəhsil məktəblərində və peşə liseylərində, o cümlədən, ötən dərs illərində buraxılış imtahanlarından qeyri-kafi qiymət alan şagirdlər, ümumi və tam orta təhsil pillələri üzrə yoxlama və buraxılış imtahanlarının mərkəzləşdirilmiş qaydada aparılması ilə əlaqədar nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi işinin təşkili məqsədilə Bakı, Şirvan şəhərləri və Hacıqabul, Sabirabad, Saatlı rayonlarında seminarlar keçirmişdir.

TİMS verilənlər bazasından istifadə edərək:

- Beynəlxalq qiymətləndirmə TİMSS və PİRLS layihəsi üçün 2009/2010-cu tədris ilində 4-cü siniflərdə təhsil alan şagirdlər haqqında məlumat hazırlanıb Monitorinq və qiymətləndirmə şöbəsinə təqdim olunmuşdur.
- Rasionlaşdırma ilə bağlı Respublikanın 2 və daha artıq məktəbləri olan kəndlər haqqında məlumat Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinə təqdim olunmuşdur.
- Rasionlaşdırma ilə bağlı 30, 50, 100-dək şagirdi olan Respublika üzrə məktəblərin siyahısı hazırlanıb Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinə təqdim olunmuşdur.
- 2009/2010-cu tədris ilində Respublika üzrə ingilis və rus dilində təhsil alan şagirdlərin sayı haqqında məlumat hazırlanıb Asiya İnkişaf Bankına təqdim olunmuşdur.
- 2009/2010-cu tədris ilində ümumtəhsil məktəblərində yoxlama və yekun imtahanların mərkəzləşdirilmiş qaydada aparılması işinin təkmilləşdirilməsi və daha səmərəli təşkili məqsədilə nəzarətçi müəllimlərlə bağlı məlumat hazırlanıb Monitorinq və qiymətləndirmə şöbəsinə təqdim olunmuşdur.

- Respublika ümumtəhsil məktəblərinin kodlaşma siyahısı Tələbə Qəbulu Dövlət Komissiyasına təqdim olunmuşdur.
- Qaçqın rayonların məktəblərinin dislokasiyası haqqında məlumat hazırlanıb Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinə təqdim olunmuşdur.
- Təhsil Nazirlinə birbaşa tabe olan məktəblərinin 2009/2010-cu tədris ilində IX, X, XI siniflərdə təhsil alan şagirdlərin adlı siyahısı müvafiq formada hazırlanaraq Səhiyyə Nazirlinə təqdim olunmuşdur.
- 2009/2010-cu tədris ilində Bakı məktəblərində direktor vəzifəsində çalışan kadrlar haqqında məlumat hazırlanaraq Təhsil Sisteminin İnformasiyalaşdırması idarəsinə təqdim olunmuşdur
- 2009/2010-cu tədris ilində bir sıra şəhər və rayonların ümumitəhsil məktəblərində çalışan kadrların (texniki işçilər daxil olmamaq şərt ilə) adlı siyahısı müvafiq elektron formada hazırlanıb və Təhsil Sisteminin İnformasiyalaşdırması idarəsinə təqdim olunmuşdur.
- Xarici ölkələrdə təhsil almış və müəyyən səbəblərdən təhsilini bitirmədən Azərbaycan Respublikasına qayıtmış və ümumtəhsil məktəblərində təhsilini davam etdirən şagirdlər (AR-ın hansı məktəbində və ümumiyyətlə təhsil alıb almamaqları) haqqında müvafiq xarici ölkələrin ümumtəhsil məktəblərin rəhbərlərinin sorğularına cavab verilmişdir.

"İlin ən yaxşı müəllimi" müsabiqəsinin II turunun təşkili və keçirilməsində şöbənin əməkdaşları iştirak etmiş və tərtib edilmiş müvafiq sənədləri rəhbərliyə təqdim etmişlər.

Təhsil sektorunun İnkişafı Layihəsinə əsasən "Ümumi təhsilin keyfiyyəti və real tələbatlara uyğunluğu" komponenti çərçivəsində "Kurikulum islahatı" alt komponenti üzrə icra planına uyğun olaraq V-XI siniflər üçün İnformatika kurikulumunun layihəsinin hazırlanmasında istifadə edilmişdir.

Təhsil sektorunun İnkişafı üzrə İkinci Layihənin (TSİİL) yerinə yetirilməsi ilə əlaqədar 2010/2011-ci dərs ilində respublikanın ümumitəhsil məktəblərinin I (birinci) siniflərində dərs deyəcək ibtidai sinif müəllimlərinin fənn kurikulumlarının tətbiqi sahəsində nəzəri və praktiki hazırlığını təmin etmək məqsədilə keçiriləcək treninqlər üçün respublika üzrə 2008/2009 və 2009/2010-cu tədris illərində "İlin məktəbi" müsabiqəsinin qalibi olan məktəb direktorları haqqında məlumatlar müvafiq formada hazırlanıb aparat rəhbərliyinə təqdim edilmişdir.

Dövlət qulluğunun 6-8-ci təsnifatı üzrə vakant inzibati vəzifələrin tutulması məqsədilə İnformatikadan keçiriləcək müsahibələrdə istifadə ediləcək sualların proqramı hazırlanıb Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinə təqdim edilmişdir.

"İnformatika" fənni üzrə olimpiadanın müvafiq turlar üçün tapşırıqların hazırlanması, işlərin yoxlanılıb qiymətləndirilməsi, respublika turunun təşkili və keçirilməsinə köməklik göstərilmişdir.

Azərbaycan Respublikası təhsil nazirinin "Ümumtəhsil məktəblərində İnformatika fənnin tədrisinin monitorinqi barədə" 20.09.2010-ci il tarixli 1238 №-li əmri əsasında Bakı, Sumqayıt şəhərlərinin və Abşeron rayonunun ümumtəhsil məktəblərində monitorinq aparan qrupun tərkibində işləmiş, komissiyanın arayışlarının ümumiləşdirilərək yekun sənəd hazırlanmışdır.

"Xalq kompüteri" layihəsi üzrə kompüter alan təhsil işçiləri haqqında məlumatlar TİMS bazası ilə tutuşdurulub, dəqiqləşdirilib və layihənin operatoruna təqdim olunmuşdur. Bütün muqavilələrin (10 000-dən artıq) qeydiyyatı aparılmışdır.

Şöbə əməkdaşları aşağıdakı seminar, treninq, sərgi və dəyirmi masalarda iştirak və çıxışlar etmişlər:

- Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin “Azərbaycan Respublikasında Rabitə və İnformasiya Texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)”nın yerinə yetirilməsinə həsr olunmuş tədbirlərdə;
- Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin “Azərbaycan Respublikasında 2010-2011-ci illərdə “Elektron hökümət”in formalaşdırılması üzrə Fəaliyyət Proqramı”nın muzakirəsi ilə bağlı tədbirlərdə;
- Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yanında yaradılmış İnternetin inkişafı üzrı Koordinasiya Şurasının tərkibində “Azərbaycanda İnternet təhlükəsizliyi” mövzusunda keçirilən iclaslarda;
- Microsoft-Azərbaycan və Azərbaycan Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən “İnnovasiya gunu”nə həsr olunmuş tədbirdə;
- Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nzirliyi, HP və Microsoft şirkətlərinin birgə təşkilatçılığı ilə keçirilən “Xalq kompüteri” layihəsinə həsr olunmuş tədbirdə;
- Rabitə və İnformasiya Texnologiyaları Nzirliyinin təşkilatçılığı ilə həyata keçirilən Birinci Azərbaycan-Belarus İKT forumunda;

**II. İş planına müvafiq olaraq Təhsil Sektorunun İnkişafı Layihəsi üzrə şöbə tərəfindən görülmüş işlər aşağıdakılardır:**

“Məktəb şəbəkəsi” hesabat formasına uyğun təlim dilləri üzrə (siniflər göstərilməklə) 2009/2010-cu dərs ilinə dair məlumatlar bazaya daxil edilmişdir. 2010/2011-ci dərs ili üçün məlumatlar isə hal-hazırda bazaya daxil edilir.

2009/2010-cu tədris ili üçün TİMS məlumat bazasında olan məlumatlar mütəmadi olaraq dəqiqləşdirilmiş və əlavələr edilmişdir.

Respublikanın ümumtəhsil məktəblərinin 2010/2011-ci dərs ili üçün “Statistika hesabatı” (1-ÜM №-li forma) ilə bağlı məlumatlar bazaya daxil edilmişdir. Yığılmış məlumatlar əsasında məktəblərdə şagird sıxlığı, müəllim-şagird nisbəti, pedaqoji işçilərin, şagirdlərin və siniflərin sayı, məktəb binasının vəziyyəti, texniki təchizatı və İKT avadanlıqlarının sayı ilə bağlı hesabat almaq mümkün olmuşdur.

2009/2010-cu tədris ilində IX və XI sinfi bitirən şagirdlərə verilmiş şəhadətnamə və attestların seriyaları, nömrələri və fənlər üzrə qiymətləri TN-nin mərkəzi məlumat bazasına daxil edilmişdir.

2010/2011-ci tədris ili üçün Rspublikanın ümumtəhsil məktəblərinin kadrları (Soyadı, adı və atasının adı, tutduğu vəzifə, əmək kitabçasından bəzi məlumatlar, şəxsiyyət vəsiqəsindəki məlumatlar, ümumi və fənlər üzrə dərs saatı, bitrdiyi ali məktəb və ixtisası, bildiyi xarici dil və s.) və məktəbdə təhsil alan şagirdlər haqqında məlumatlar bazaya daxil edilmişdir və mütəmadi olaraq bu məlumatlar yenilənir.

2010/2011-ci tədris ili üçün tam orta və ümumi orta təhsil pillələri üzrə mərkəzləşdirilmiş qaydada keçiriləcək imtahanlarla bağlı IX və XI sinif şagirdlərinin adlı siyahısı dəqiqləşdirərək Monitorinq və qiymətləndirmə şöbəsinə təqdim edilmişdir.

Məktəbəqədər tərbiyə və təhsil şöbələri üzrə TİMS modullarının artırılması məqsədilə müvafiq qurumların tələbatları öyrənilmişdir.

TİMS-in “Məktəbəqədər təhsil” modulunun hazırlanması və tətbiqi üçün proqram təminatı hazırlanır.

Təhsil şöbələri üzrə TİMS modulu hazırlanmış və müvafiq məlumatlar bazaya daxil edilmişdir.

TİMS-in səmərəli fəaliyyətinin təşkili və idarəetmə strukturu təkmilləşdirilməsi istiqamətində R(Ş)T şöbələrində TİMS üzrə əlaqələndirici şəxslər müəyyənləşdirilmiş və onlara müvafiq treninqlər keçirilmişdir.

Şöbədə hazırlanmış "TİMS-məktəb" proqramının təkmilləşdirilməsi ilə bağlı Respublikanın bütün təhsil şöbələrinin, Nazirliyin tabeliyində olan orta ümumtəhsil məktəblərinin, Bakı şəhərinin bütün ümumtəhsil məktəblərinin İKT üzrə məsul şəxslərinə treninq-seminarlar keçirilmişdir və mütəmadi bu iş davam etdirilir.

Təhsil şöbələri, məktəblər, şagird və müəllimlər haqqında mətbuatda yayımlanan materiallar mütəmadi izlənilir və TİMS məlumat bazasına daxil edilir.

Məktəbəqədər təhsil müəssisələri ilə bağlı məlumatlar (ünvanı, tipi, iş rejimi, mülkiyyət növü, binanın texniki vəziyyəti) verilənlər bazasına daxil edilmişdir.

Təhsil və qeyri-təhsil sektorunda çalışan elmlər doktorlarının (adı, atasının adı, soyadı, doğum tarixi, doktorluq dissertasiyasının şifri və ixtisasının adı, müdafiə ili, işlədiyi müəssisə, vəzifəsi, ştatı və s.) məlumat bazası yaradılmışdır.

Nazirliyin mərkəzi aparatının şöbələri TİMS-in mərkəzi bazasına birləşdirilmiş, məlumatalra çıxışları təmin edilmiş və TİMS sistemi ilə işləmək vərdişlərinin öyrədilməsi istiqamətində mərkəzi aparatın işçilərinə müvafiq treninqlər keçirilir.

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Dövlət Statistika Komitəsi və digər dövlət qurumlarının təhsillə bağlı informasiya sistemlərinə və toplanmış məlumatlar əsasında hazırlanacaq hesabatlara olan tələbatlar öyrənilmişdir.

TİMS-in illik iş planı, rüblük hesabatları və İcra Planı hazırlanaraq LƏQ-ə təqdim edilmişdir.

## III. Mövcud problemlər və onların aradan qaldırılması üçün təkliflər.

***Problemlər:***

- Rayon (şəhər) təhsil şöbələrində və məktəblərdə İKT üzrə mütəxəssislərin kifayət qədər olmaması.
- TİMS alt komponentin əsası olan proqram təminatının hazırlanmasına nəzərdə tutulmuş vəsaitin ayrılmaması.
- Şəbəkə infrastrukturunun zəif olması.
- Xarici ölkələrin təcrübəsinin öyrənilməsi məqsədilə TİMS şöbəsinin əməkdaşlarının tədris səfərlərinin təşkil olunmaması.

***Təkliflər:***

- Respublikanın bütün təhsil şöbələrində TİMS üzrə ştat vahidinin ayrılması.
- TİMS üçün istifadə edilməsi məqsədilə təhsil şöbələrinin İKT avadanlıqları ilə təchizatı.
- Bütün tədris müəssisələrində (ümumtəhsil məktəbləri, texniki peşə, orta ixtisas və ali təhsil müəssisələri) TİMS üzrə əlaqələndiricinin təyin olunması.
- Məktəb hesabatlarının yeni dərs ilindən bilavasitə verilənlər bazası şəklində formalaşdırılmasını nəzərə alaraq Dövlət Statistika Komitəsi ilə

həmin hesabat formalarının təkmilləşdirilməsi istiqamətində işlərin aparılması.

## IV. Perspektiv fəaliyyət istiqamətləri.

- TİMS modullarının artırılması və sistemin təkmilləşdirilməsi – müxtəlif təhsil pillələri (məktəbəqədər tərbiyə) və təhsil şöbələri üzrə yeni modulların yaradılması üzrə işlərin davam etdirilməsi.
- TİMS şəbəkəsinin qurulması – TN və R(Ş)TŞ üçün lazım olan avadanlıqlarının alınıb quraşdırılması, tələb olunan sistem proqramların və verilənlər bazasının idarəolunması sisteminin alınıb quraşdırılması.
- Sistemin istifadəçilərinin hazırlığı – treninqlərin keçirilməsi.
- TİMS-in idarəetmə strukturunun təkmilləşdirilməsi – R(Ş)TŞ-də TİMS-ə cavabdeh olan İKT üzrə mütəxəssis ştatının ayrılması, TİMS-in fəaliyyəti üçün cavabdehlik sisteminin qurulması.
- Məktəb idarəetmə sisteminin qurulması.